# Ədliyyə və məhkəmə orqanlarında islahatlar insan hüquqlarının etibarlı müdafiəsinə xidmət edir

**Müstəqil Azərbaycan Respublikası son illər sosial-iqtisadi sahədə qazandığı mühüm uğurlarla yanaşı, həm də mütərəqqi ruhlu hüquqi-siyasi islahatlarla, insan hüquq və azadlıqlarının təminatına yönəlmiş kompleks tədbirlər sistemi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Sivil Qərb dəyərlərini prioritet seçərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində ardıcıl və sistemli islahatlar həyata keçirən respublikamız ötən illərdə, eyni zamanda, müstəqil məhkəmə sisteminin formalaşdırılması sahəsində də mühüm nailiyyətlərə imza atmışdır.**

Xatırlatmaq lazımdır ki, 1995-ci ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası demokratik quruluşun, hüquqi dövlətin möhkəm təməlini qoymuş, habelə Əsas Qanunda məhkəmələrin dövlət idarəetmə sistemində müstəqil hakimiyyət qolu kimi yeri və rolu düzgün müəyyənləşdirilmişdir. Ölkə Konstitusiyasına əsasən, hakimiyyətin müstəqil qolu olan məhkəmələr üçpilləli olmaqla dünyanın mütərəqqi təcrübəsinə əsasən formalaşdırılmışdır. Üçpilləli məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etməklə, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apelyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan yaratmışdır.

Ulu öndər Heydər Əliyevin hər bir fərdin mənafeyini uca tutmaqla əsasını qoyduğu məhkəmə-hüquq islahatları son 16 ildə onun layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətin iqtisadi imkanlarının daha da genişləndiyi son illərdə məhkəmə orqanlarında zamanın tələbi ilə səsləşən islahatlar geniş vüsət almış, ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi, obyektiv və şəffaf şəraitdə hakim korpusunun formalaşdırılması, məhkəmə orqanlarının fəaliyyətində şəffaflığın təmini və bəzi neqativ halların aradan qaldırılması istiqamətində qətiyyətli tədbirlər həyata keçirilmişdir.

2018-ci ilin 11 aprel seçkilərində növbəti dəfə inamlı qələbə qazanaraq səlahiyyətlərinin icrasına başlamış Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son 1 il yarımda əsaslı yeniliklərə start verməsi ölkəmizdə sistem xarakterli islahatların başlandığını deməyə ciddi əsaslar verir. Dövlətimizin başçısının daha geniş miqyasda reallaşdırdığı sosialyönümlü islahatlar paketi, habelə şəffaflığın təmini, sahibkarlığın inkişafına mane olan bürokratik amillərin aradan qaldırılması istiqamətində atılan qətiyyətli addımlar cəmiyyətin bütün sferaları, o cümlədən məhkəmə-hüquq sistemi qarşısında da yeni çağırışları aktuallaşdırmışdır.

2019-cu il 20 mart tarixində xalqa ənənəvi müraciətində dövlətimizin başçısı cənab İlham Əliyev cəmiyyətin digər sahələri ilə yanaşı, məhkəmə-hüquq sistemində də islahatların davam etdiriləcəyini demişdir: *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub".*

Məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını uğurla həyata keçirən Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının son 14 illik məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə infrastrukturun müasirləşdirilməsi, yeni regional məhkəmələrin yaradılması, habelə hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olmuşdur. Son 10 ildə məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən, regional apelyasiya, ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə yaradılaraq fəaliyyətə başlamışdır.

Hakimlərin seçiminə diqqət gücləndirilmiş, 2 çoxmərhələli, şəffaf və obyektiv imtahanlar nəticəsində uğur qazanmış 400-dək namizəd hakim vəzifəsinə təyin olunmuşdur. Məhkəmə islahatları nəticəsində hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Azərbaycanda hakimlərin seçimi prosesini bilavasitə izləməklə ölkəmizin təcrübəsini digər Avropa dövlətlərinə örnək kimi göstərmişdir.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamların uğurla həyata keçirilməsi prosesində Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun yüksək təşkilatçılığı, dövlət mənafelərinə sadiqliyi də əhəmiyyətli rol oynamışdır. Məhz Məhkəmə-Hüquq Şurasının şəffaf və ədalətli təqdimatı əsasında möhtərəm Prezidentimiz mütəmadi olaraq bir çox hakimlərə yüksək etimad göstərir, test, müsabiqə və tədris mərhələsini keçən hakimliyə namizədlər bu vəzifəyə təyin edilirlər.

Məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində ölkəmizdə konseptual baxımdan yeni olan, funksionallığı ilə fərqlənən yeni məhkəmə binaları layihələndirilərək inşa edilir. Son 10 ildə Bakı şəhərinin Yasamal, Sabunçu, Nərimanov məhkəmə komplekslərinin, eləcə də Şəki, Gəncə, Oğuz, Gədəbəy, Quba və İmişli rayon məhkəmələrinin yeni binaların açılışları olmuşdur. Bunun nəticəsi olaraq Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihələri ən uğurlu layihələrindən biri kimi qiymətləndirmiş və "Vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması" nominasiyasının qalibi elan etmişdir. Bundan əlavə, respublika məhkəmələrinin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi - "Elektron məhkəmə" İnformasiya Sisteminin tətbiqi də ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə xidmət etmişdir.

İnsan amilinin hökumətin fəaliyyətində daim prioritet olması həyata keçirilən islahatların davamlılığını və səmərəliliyini təmin edir. Dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci ilin 28 dekabrında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanununda dəyişikliklər edilərək iqtisadi mübahisələr üzrə işlərə kağızsız, elektron qaydada baxılmasına keçilmiş, hakim və sahibkar arasında münasibətlərin tamamilə elektron qaydada tənzimlənməsi təmin edilmişdir.

Həyata keçirdiyi ardıcıl islahatlarla demokratik idarəetmə prinsiplərinə sadiqlik nümayiş etdirən Azərbaycan cəza siyasətinin humanistləşdirilməsi məsələsinə də ciddiliklə yanaşır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı keyfiyyətcə yeni mərhələdə cəza siyasətinin humanistləşdirilməsinə xidmət etmişdir.

Sərəncamla Ədliyyə Nazirliyi yanında Probasiya Xidməti yaradılmış, habelə cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan, o cümlədən ictimai işlər cəzasının effektiv icrası üzrə tədbirlər görülmüşdür. "Elektron icra" sistemi vasitəsilə ictimai işlər cəzasını çəkən şəxslərə və icra prosesinə nəzarət gücləndirilmiş, bu cəzanın səmərəli tətbiqi məqsədilə qanunvericilik təkmilləşdirilərək Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli qərarı ilə "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası" təsdiq edilmişdir.

Sərəncamla, eyni zamanda, məhkəmələrə həbs qətimkan tədbiri seçilərkən şəxsin cinayətə aidiyyəti ilə bağlı əsaslı şübhənin, həbs qətimkan tədbirinin seçilməsinin əsaslarının mövcudluğunun araşdırılması, digər qətimkan tədbirinin seçilməsinin qeyri-mümkünlüyü barədə dəlillərin yoxlanılması, Ali Məhkəməyə isə həbs qətimkan tədbirinin seçilməsi və azadlıqdan məhrumetmə cəzasının təyin edilməsi ilə bağlı məhkəmə təcrübəsinin mütəmadi ümumiləşdirilməsi, bu sahədə ədalətli məhkəmə təcrübəsinin formalaşdırılması tövsiyə edilmişdir.

Məhkəmə-hüquq islahatları sahəsində mühüm addımlardan biri də "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu olmuşdur. Cari il martın 29-da bununla bağlı müvafiq qanun ölkə Prezidenti tərəfindən imzalanmış, qanunda mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili məsələləri öz əksini tapmışdır. Mediasiya institutunun yaradılması mübahisələrin məhkəmədən kənar həlli mexanizmlərinin formalaşmasına, nəticə etibarilə məhkəmələrin iş yükünün azalmasına səbəb olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanı isə keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının dərinləşməsinə geniş imkanlar açmışdır. Fərmana əsasən, Azərbaycan Respublikasının bütün məhkəmə sədrlərinə və hakimlərinə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi kimi prinsiplərə dönmədən riayət etmək tövsiyə edilmişdir.

Fərmanda hakimlərin müstəqilliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətinə müdaxilə və digər neqativ halların aradan qaldırılması məqsədilə müvafiq məlumatların qəbulu üçün qaynar xəttin yaradılması, hakimlərin və məhkəmə sədrlərinin peşəkarlıq səviyyəsinin qiymətləndirilməsi prosedurlarında şəffaflığın daha da artırılması, bu sahədə tətbiq edilən meyarların təkmilləşdirilməsi kimi mühüm müddəalar nəzərdə tutulmuşdur. Eyni zamanda, fərman məhkəmə aktlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə bir sıra mühüm istiqamətlər müəyyənləşdirmişdir. Belə ki, məhkəmələrin və digər orqanların qərarlarının qanunla müəyyən edilmiş müddətdə icrasının təmin edilməsi, "Elektron icra" informasiya sisteminin tətbiqinin genişləndirilməsi, icra məmurlarının süründürməçilik və sui-istifadə hallarına yol verməmələrinin qarşısının alınması məqsədilə ciddi tədbirlərin görülməsi tapşırılmışdır.

Fərmanla, məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ-hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin vahid məhkəmə təcrübəsini formalaşdırmaq vəzifəsinin və həmin vəzifənin icra mexanizminin təsbit edilməsi sahəsində normativ-hüquqi aktların layihələrinin hazırlanması da nəzərdə tutulmuşdur.

Bundan başqa, fərmanla Ali Məhkəməyə, Məhkəmə-Hüquq Şurasına və Ədliyyə Nazirliyinə sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması tapşırılmışdır. Bununla əlaqədar hazırda Məhkəmə-Hüquq Şurası tərəfindən inzibati və kommersiya məhkəmələrinin formalaşdırılması istiqamətində ciddi iş aparılır.

Fərmanda "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə əlaqədar təşkilati işlərin yekunlaşdırılması, mediasiya prosesinin tətbiqi ilə bağlı maarifləndirmə və təşviqat tədbirlərinin həyata keçirilməsi, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının fəaliyyətinin müasirləşdirilməsi, birinci instansiya məhkəmələrində kargüzarlığın aparılması ilə bağlı dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitin birbaşa hakimlərin bank hesablarına köçürülməsi və digər məsələlərlə bağlı tövsiyə və tapşırıqlar verilmişdir. Eyni zamanda, fərmanla məhkəmə hakimlərinin ümumi sayının 200 nəfər artırılması nəzərdə tutulur və bu da ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi, işlərə vaxtında və keyfiyyətlə baxılması baxımından əhəmiyyətlidir.

Sonda xüsusi vurğulamaq istərdik ki, ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 22 noyabr tarixi Ədliyyə işçilərinin peşə bayramı elan edilmişdir. Bu yüksək etimad hər bir ədliyyə və məhkəmə orqanı əməkdaşı tərəfindən dərin minnətdarlıq və iftixar hissi ilə qarşılanır, Azərbaycanın ədliyyə tarixinə, müsbət ənənələrə dərin ehtiramın təzahürü kimi dəyərləndirilir.

**Ədliyyə və məhkəmə-hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsi deməyə əsas verir ki, hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində hər bir vətəndaşın layiqli prezidenti olacağını bəyan etmiş cənab İlham Əliyev bu vədini əməli işi ilə doğrultmuş, cəmiyyətin hüquq sisteminin daha da təkmilləşdirilməsini təmin etmişdir. Bu diqqət və qayğının nəticəsi kimi 101 yaşlı ədliyyə və məhkəmə orqanları da davamlı müasirləşmə yoluna qədəm qoyaraq insan hüquq və azadlıqlarının təmini prosesində prinsipial mövqe nümayiş etdirirlər.**

**Abbas RZAYEV,**
**Binəqədi Rayon Məhkəməsinin hakimi.**

Respublika.- 2019.- 20 noyabr.- S.4.